Adil Quliyev

# XÜSUSİ TƏYİNATLI

Roman

qanun nəşriyyatı

**Adil Quliyev. XÜSUSİ TƏYİNATLI**
Bakı, Qanun Nəşriyyatı, 2024, 216 səh.

Ölçü: 130x200 mm
Cild: qalın
Çapa imzalandı: 15.05.2024

| | |
|---|---|
| Tərcüməçi: | Dürdanə İbrahimova-Hüseynbəyli |
| Redaktor: | Şərif Ağayar |
| Korrektor: | Ayxan Ayvaz |
| Mətn dizaynı: | Pərvanə Şahin |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

ISBN 978-9952-38-960-9

© Adil Quliyev, 2024
© Qanun Nəşriyyatı, 2024

Roman ötən əsrin 90-cı illərində torpaqlarımızın işğalından tutmuş 2023-cü il sentyabrın 19-da keçirilən antiterror əməliyyatına qədər gərgin hadisələrlə dolu geniş tarixi dövrü əks etdirir. Hadisələr yaşlı babasından başqa bütün yaxınlarını Xocalıda itirən Aslan Bunyadovun həyatı fonunda əks olunur. Aslanın uşaqlığı, təhsili, xüsusi təyinatlı zabit kimi 44 günlük zəfər müharibəsində iştirakı, eyni zamanda onun sevgi həyatı əsərin əsas mövzusunu təşkil edir. Roman qələbə ilə nəticələnən Vətən müharibəsi haqqında yazılmış ilk irihəcmli əsərdir. Kitab ilk dəfə rus dilində Rusiyanın Sankt-Perterburq şəhərində «Карабах: долгожданное возвращение» adı ilə çap olunmuşdur.

*“Qisasın ədalətli olmağını istəyirsənsə,*
*pisliyə pisliklə cavab ver”*

***Əbülqasım Firdovsi***
*(sətri tərcümə)*

**Adil Quliyevə**

*“Xüsusi təyinatlı” romanının Rusiya nəşri haqqında*

Sizin yeni “Qarabağ: çoxdan gözlənilən qayıdış” əsərinizi böyük maraqla oxudum. Kitab birnəfəsə oxunur, oxuduqca qəhrəmanlar və onların taleyi haqqında dərin həyəcan keçirirsən. Əvvəldə müharibəyə qədər xocalıların dinc həyatı, gənc Aslan və Nərminənin münasibəti, onların gələcək həyat üçün həyəcanları və cəhdləri təsvir olunur. Təəssüf ki, bütün xocalılar kimi müharibə onların da planlarını pozur. Kitabda həqiqətə uyğun şəkildə erməni silahlılarının Xocalıda azərbaycanlılara verdiyi amansız işgəncələri təsvir edirsiniz – kitabın bu hissəsini oxumaq, xüsusilə, çətindir.

Əsərdə dinc əhalinin payına düşən bütün ağrılar və əzablar aydınlıqla göstərilir: qohum və yaxınların qətlə yetirilməsi, qaçqınların taleyi, mal-mülk itkisi, doğma torpaqlardan kənardakı çətin həyat...

Qəhrəmanların doğma torpaqlara qayıtmaq arzusu əsərin içindən qırmızı xətt kimi keçir. Buna görə baş qəhrəman xüsusi təyinatlıların cərgəsinə qoşulur. Bundan başqa, əvvəl ümummilli lider Heydər Əliyevin, daha sonra respublika prezidenti və Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün bütün zəruri tədbirlərin görülməsi dəfələrlə qeyd olunur. Və nəhayət, həmin gün gəlir: ölkə rəhbərliyinin müdrik siyasəti nəticəsində Azərbaycan ordusu Qarabağı işğaldan azad edir. Hər bir azərbaycanlının ürəkdən arzuladığı bu proses uzunmüddətli və ağır bir proses idi.

Əsərin sonuna yaxın artıq böyümüş və uşaqlıq arzusuna çatmış Aslan doğma evinə qayıdır, burada öz xoşbəxtliyini tapır və bu sevinci Murad baba ilə bölüşür.

Kitabın geniş oxucu kütləsi üçün maraqlı olacağına inanıram. Bunun üçün əsərdə lazım olan hər şey var: cəlbedici hadisə, taleyin zərbələrinə baxmayaraq öz məqsədlərinə çatan maraqlı və çoxşaxəli qəhrəmanlar və əlbəttə, süjet xəttində Azərbaycan xalqının çoxdan gözlənilən qələbəsi və zəfəri xüsusi yer tutur.

...Sizə yazıçılıq fəaliyyətində yeni uğurlar arzulayıram. Qoy sizin hər yeni kitabınız nəinki oxucuların rəğbətini qazansın, həm də siz bunu dünya ilə bölüşməkdən zövq alasınız.

**Polad Bülbüloğlu,**
*Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri, Xalq artisti*

# I Fəsil

## XOCALIDA DİNC HƏYAT

—Nərmii-n, çıx! Mən burdayam, gəəəl!

– Artıq çıxıram, ayaqqabılarımı geyib gəlirəm, – hasarın arxasından cingiltili qız səsi eşidildi. – Ana, mən Aslanla gəzməyə getdim!

Nərminlə Aslan qonşu idilər. Onların evlərinin arasında ot basmış kolluqlar vardı – uşaqlar çox vaxt orada oynayırdılar. Balacaların valideynləri də mehriban qonşu idilər, xeyirdə, şərdə həmişə bir yerdə olurdular. Aslan ata-anası və böyük qardaşı ilə Nərmingilə qonaq gedirdi. Onlar da tez-tez Aslangilə təşrif buyururdular. Axşamlar qonşular, adətən, ya mətbəxdə, ya həyətdə oturub çay içir, oradan-buradan söhbət edirdilər. Uşaqlar da elə oradaca oynayırdılar. Böyüklərə baxıb onlar da dost olmuşdular. Aslanın doqquz, Nərminin səkkiz yaşı vardı. Oğlan hər gün səhər tezdən evdən çıxıb yolda dostunu gözləyirdi. Nərminin çantasını götürür, deyə-gülə məktəbə yollanırdılar.

"Gör nişanlısının qayğısına necə qalır!? Aslan əsl igiddir!" – qonşular zarafata salırdılar. Bu sözlər Aslanın xoşuna gəlir, onu fərəhləndirirdi. O, Nərmini evlərinə qədər

ötürürdü. Ev tapşırıqlarını yerinə yetirəndən sonra əl-ələ verib kəndin kənarına gəzməyə gedirdilər. Aslan Nərminə çöl çiçəklərindən böyük dəstə toplayırdı, o isə həvəslə mahnı oxuya-oxuya kəpənəkləri qovurdu. Yorulanda dostunun yanına qayıdır, çiçəkləri götürüb cuppulu burnuna yaxınlaşdırır, qoxulayıb çəmənliyin ətrini sinəsinə çəkirdi.

Aslanın bağışladığı güllər qızın çox xoşuna gəlirdi. Nərmin necəgəldi yığılan çiçəkləri zövqlə səliqəyə salırdı. Amma bu balaca qız haqqında çoxlu əfsanələr gəzən xarıbülbül çiçəyini tapmaq istəyirdi. Şuşanın rəmzi sayılan, heyrətamiz gözəlliyə malik xarıbülbülü ancaq elə Şuşanın zirvələrində tapmaq olardı.

Əsl xarıbülbülü o heç vaxt görməmişdi. Bu çiçəyi bircə dəfə ad günündə atasının ona hədiyyə verdiyi açıqcada görmüş, sevmişdi.

Bu gül yadına düşəndə qızcığaz istər-istəməz dağlara – uca zirvələrin qoynunda qiymətli daş-qaşa bənzəyən Şuşaya tərəf boylanırdı.

– Sən mənə xarıbülbül gətirəcəksənmi? – Nərmin tez-tez vəfalı dostundan soruşurdu.

– Əlbəttə, böyüyəndə Şuşaya gedib gətirəcəyəm.

– Gülü qopartma! Köklü-köməcli gətir! Onu dibçəyə əkib otağımda bəsləyəcəm.

– Yaxşı, elə gətirərəm. – Oğlan razılaşırdı.

Aslangilin ailəsi beş nəfərdən ibarət idi: atası Məcid, anası Raya, böyük qardaşı Vüqar, nəslin ağsaqqalı Murad baba və o özü. Murad baba yaşına görə cavan görünürdü. Aslanın yaşadığı Xocalı şəhərində dostlarının çoxunun babası vardı, amma onlar çox yaşlı idilər – saç-saqqalları ağarmışdı.

Kiçik nəvə sualları ilə babasını bezdirirdi:

– Baba, bəs sənin saçların o biri babalar kimi niyə ağarmayıb?

– Zamanı qabaqlama, mənimki də ağaracaq, bala, – deyərək babası onun qara tellərini sığallayırdı.

– Bəs nə vaxt?

– Tezliklə, bala, lap tezlikə, – baba hövsələylə cavab verirdi.

– Ay baba, ağ saç yaxşıdır, ya qara? – Aslan əl çəkmirdi.

– Yadına saxla, uca dağların başı qar olar. Qar bilir ki, orada – yüksəklikdə onu heç kim tapdayıb çirkləndirməyəcək. Ağ saçlar da elədir! İnsan gərək pis hərəkətlə, pis adla bəyaz saçları ləkələməsin! Ona görə də insan gərək müdrikləşib ağ saçlara layiq olsun.

Evdə nəslin başçısına istədiyi sualları verməyə tək Aslanın ixtiyarı çatırdı. Ailənin başqa üzvləri, hətta Aslanın və Vüqarın atası da, Murad babanı görəndə özlərini yığışdırırdılar.

Murad kişi müdrik, həm də çox ciddi və məğrur adam idi. O, nəinki öz doğmalarına, hətta doğru-dürüst olmayan hər kəsə səsini qaldırar, yerini göstərə bilərdi. Aslan isə onun sevimlisi olduğuna görə hər şeyi bağışlayırdı.

Sonbeşik nəvə bundan sui-istifadə eləmir, özünü nümunəvi aparmağa çalışırdı. Ancaq Aslan bir dəfə qaydanı pozdu.

Məktəbdə sinif yoldaşlarının Nərmini incitdiyini, saçını dartdığını gördü. Düşünmədən davaya girişdi, Nərmini müdafiə etməyə başladı. Uşaqlardan birinin köynəyi cırıldı, digərinin çantası dağıldı. Aslan evə üz-gözü göyərmiş, köynəyi cırılmış halda qayıtdı. Səhər atasını məktəbə çağır-

dılar. Babasının bu dəfə onu bağışlamayacağını fikirləşdi və ciddi söhbətə hazırlaşdı. Lakin düşündüyü kimi olmadı.

Aslan qorxusundan həyətdə dayanmışdı, evə girməyə ürək eləmirdi.

– Orada niyə dayanmısan? Bura gəl görüm. Nə olub? – babası pəncərədən onu səslədi.

Uşaq ayaqlarını zorla sürüyərək evə girdi.

– Danış görək, nəyi bölə bilməmisiniz? Kiminlə dalaşmısan? – baba içəri girən nəvəsinə dedi.

Aslan başını aşağı dikdi və hər şeyi olduğu kimi danışdı.

– Deməli belə... aydındır, – babası dərindən köks ötürdü. Diqqətlə uşağa baxıb davam etdi:

– Yaxşı, olacağa çarə yoxdur, – o biri otaqdakılar da eşitsin deyə uca səslə dedi. – Bir də belə eləmə. Sən məktəbə oxumağa gedirsən, davaya yox!

Sonra o Aslana tərəf əyildi və sakit səslə söylədi:

– Dostunu müdafiə etmisən, bu, əsl kişi hərəkətidir! Heç vaxt heç kimdən qorxma! Əsl kişi öz qohum və dostlarını müdafiə etməlidir! Çalış bir də dava olmasın. Yadında saxla, əsl qəhrəman dava salan yox, onu yoluna qoymağı bacarandır!

Aslan Nərminlə yenicə dost olmuşdu. Məcidin məsləhəti ilə Nərminin atası qonşu kənddən Xocalıya, arvadı və qızı ilə birgə, təzəcə köçmüşdü.

Nərminin valideynləri ev aldılar, Aslanın ata-anasının çalışdığı traktor parkında işə başladılar. Qonşuluqdakı boş binaya ev əşyaları ilə dolu maşının yaxınlaşdığı günü Aslan yaxşı xatırlayır. O, gələnlərin atasının dostu olduğunu bilirdi. Aslan bu xəbəri vermək üçün evə qaçdı və dərhal

da geri qayıtdı. Təzə qonşular onun xoşuna gəlmişdi. Onlar gülərüz, mehriban adamlar idi. Saçlarında ağ lentdən iki kəpənək olan, uzun kirpikli qız da onun xoşuna gəlirdi. Böyüklər maşından yükləri daşıyana qədər qızcığaz bir kənarda dayanıb, əlindəki yumşaq ayısını qucağına basıb gözlədi.

Axşamdan keçmişdi. Bütün əşyalar evə daşınıb qurtarandan sonra Aslanın valideynləri təzə qonşuları evlərinə – axşam yeməyinə dəvət etdilər. Təzə köçənlər hələ gətirdikləri əşyaları yerbəyer etməmişdilər. Böyüklər söhbətə başlayanda Aslan da qıza yaxınlaşdı. O, bayaqdan oyuncağı da əlində bir kənarda susub dayanmışdı. Oğlan qızın ayısına diqqətlə baxdı və nəhayət, ondan soruşdu:

– Mənim adım Aslandır, bəs sənin adın nədir?

– Mənim adım Nərmindir, bu isə Moskadır, – oyuncağını göstərdi.

– Sən niyə onu elə bərk tutmusan? – Aslan soruşdu.

– Çünki o mənim dostumdur, biz hətta gecələr də ayrılmırıq.

– Niyə? Bir yerdə yatırsız?

– Hə. Bir yatırıq.

– Maraqlıdır, – Aslan gülümsədi.

– Bəs sənin oyuncaqların yoxdur? – Nərmin soruşdu.

– Yox, amma mən yaxşı şəkillər çəkirəm. Baxmaq istəyirsən?

– Hə, istəyirəm, – Nərmin marağını gizlətmədi.

Uşaqlar birlikdə o biri otağa keçdilər. Aslan çəkdiyi rəsmləri döşəməyə düzdü. Onlar dizləri üstə oturub şəkillərə baxmağa başladılar. Oğlan oturduğu yerdəcə qəfildən qızın saçlarını qoxuladı və nəfəsini içinə çəkdi.